*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*

**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU**

# İNSAN KAPİTALININ İNKİŞAFI: NƏZƏRİ ASPEKTLƏRİ VƏ QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI



**Bakı - 2017**

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*

**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU**

# *İNSAN KAPİTALININ İNKİŞAFI: NƏZƏRİ ASPEKTLƏRİ və QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI*

**Bakı - 2017**

**Tədqiqat qrupu**

**Rəhbər:** i.e.d. Arzu Hüseynova
**İcraçılar:** Aynurə İsmayılova, t.e.n. Vəfa Rzayeva, i.ü.f.d. Fərhad Mikayılov, i.ü.f.d. Arzu Süleymanov, Təranə Salıfova, Əlvan Süleymanova, Nərminə Quliyeva, Əminə Yaqublu, Fatma İmaməliyeva, İzzət Salmanova, Aliya Şabanova, Dilrufə Hüseynova, Xalid Cavadov, Afaq Qasımova, Hüseyn Məmmədov, Xanım Rzayeva

**Redaktor:** Sayalı Abbasəliyeva

İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: "Çap ART" Nəşriyyatı, 2017, 28 s.

*Kitab Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş* ***"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"****nin tədbirlərinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu tərəfindən işlənilmişdir*

***© İİETİ, Bakı, 2017***

# *MÜNDƏRİCAT*

*GİRİŞ* ........................................................................ 4
*İNSAN KAPİTALI KONSEPSİYASININ  NƏZƏRİ ASPEKTLƏRİ* ........................................ 5
*İNSAN KAPİTALININ İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ METODOLOGİYASI* ...................15

# GİRİŞ

Məlum olduğu kimi, hazırda ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrdən biri də əldə olunmuş iqtisadi inkişafın nəticələrinin sosial inkişafa yönəldilməsini təmin etməkdən ibarətdir. Çünki aparılan iqtisadi siyasət nəticəsində əldə edilən makroiqtisadi sabitlik və iqtisadiyyatın real sektorunda baş verən davamlı inkişaf, cəmiyyətin keçid dövründən irəli gələn sosial problemlərin həll edilməsinə obyektiv zəmin yaratmışdır.

Əslində inkişafın əsas məqsədi xalqın həqiqi sərvəti olan insanların maddi və mənəvi tələbatının ödənilməsinə yönəldilmişdir. İnkişaf prosesi seçim variantlarının sayının artırılması vasitəsilə insanın imkanlarını genişləndirə bilər. Onun sayəsində isə insanlar dəyərli və yaradıcı həyatlarını keçirirlər. Bununla yanaşı, insanlar, eyni zamanda, inkişaf sərvətinin alıcıları, həmçinin tərəqqi və dəyişikliklərin hərəkətverici qüvvələri hesab olunurlar. Həmin proses bərabər səviyyələrdə bütün sahələrdə fayda gətirməlidir və onlardan hər birinin iştirakına əsaslanmalıdır. İnkişafa – insan inkişafına belə yanaşma 1990-cı ildən başlayaraq insan inkişafı haqqında hesabatda əsaslandırılır.

Fərdlərin sahib ola bildiyi imkanların diapazonu onları genişləndirməyə imkan verə bilən seçim variantları potensial olaraq sonsuzdur və hər bir fərddən asılı olaraq şəklini dəyişir. Lakin açıq siyasət prioritetlərin müəyyən edilməsindən ibarətdir.

İnsan rifahının nail olunmasında əhəmiyyətli qlobal tərəqqinin qiymətləndirilməsi üçün daha vacib imkanların üzə çıxmasında iki kriteriya faydalıdır. Birincisi bu həyat üçün əsas olmalıdır. İkincisi onlar həyat üçün əsas olmalıdır, o halda ki, onların olması çoxlu digər seçim variantlarını istisna etsin. Bu səbəbdən də insan inkişafı haqqında hesabatda uzun və sağlam həyat, biliyə malik olma və layiqli həyat üçün tələb olunan resurslara təminat kimi üç vacib göstəriciyə diqqət yetirilməsi nəzərdə tutulur.

Bu tədqiqat işi də məhz belə bir məqsədə - insan kapitalının formalaşması və inkişaf problemləri üzrə nəzəri-metodoloji bazanın formalaşdırılmasına və bu əsasda da tədqiqatların aparılmasına xidmət edir.

# *İNSAN KAPİTALI KONSEPSİYASININ NƏZƏRİ ASPEKTLƏRİ*

İqtisadiyyatın inkişafında insanın rolu daha düzgün başa düşüldükcə, onun tədqiq edilib öyrənilməsi zərurəti də get-gedə daha anlamlı olmuş, həmçinin bu sahədə aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmışdır.

Bu baxımdan son illər insan inkişafı ilə bağlı tədqiqatların aparılması daha da genişlənmişdir. Belə ki, baş verən köklü iqtisadi-siyasi dəyişikliklər şəraitində insan kapitalının inkişaf etdirilməsi və bu kapitaldan səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki burada məqsəd sosial proseslərin inkişafına təsir edən amilləri aşkara çıxarmaq, meydana çıxa bilən və mümkün olan bütün sosial nəticələrin dövlət səviyyəsində həll edilməsi vəziyyətini qiymətləndirən prosesin inkişaf meyillərinə fəal təsir göstərməkdən ibarətdir. Başqa sözlə desək, insan kapitalının inkişafı və ondan səmərəli istifadə olunması dövlətin fəal siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.

İnsan kapitalı istehsal prosesinin əsas hərəkətverici amilidir, ictimai təkrar istehsal isə geniş, xalq təsərrüfatı nöqteyi-nəzərindən məhsul istehsalının yenidən başlanılması və bu kapitalın özünün təkrar istehsalıdır. Bu cəhətlər iqtisadçı-nəzəriyyəçilərin daim diqqətini cəlb etmişdir. A.Smit yazırdı ki, "faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin çevikliyinin və bacarığının yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O, hesab edirdi ki, əsas resurslar maşın və başqa alətlərdən, tikililərdən, torpaqdan və "əhalinin və cəmiyyət üzvlərinin əldə edilmiş faydalı bacarıqlarından" ibarətdir. O, qeyd edirdi ki, "bu cür bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi, təlimi və ya şagirdliyi dövründə təkmilləşməsi zamanı xərc tələb edir, bu bir növ onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir". Bu bacarıqlar, müəyyən şəxsin dəyərinin tərkib hissəsi olmaqla bərabər məxsus olduğu cəmiyyətin də sərvəti olur.

İnsan inkişafı mürəkkəb bir sxemdir və bu inkişaf əsasən ümumi ictimai yüksəlişə əsaslanır. Aydındır ki, insanın ***üç əsas məqsədi*** reallaşdırmadan ictimai yüksəliş mümkün deyildir. Bu məqsədlərə ***uzun və sağlam ömür sürmək***, ***biliklər əldə edib onları yeniləşdirmək və genişləndirmək***, həmçinin ***yüksək həyat səviyyəsini təmin edən maddi nemətlər əldə etmək*** aiddir.

Bu məqsədləri araşdırarkən yalnız *ümumi daxili məhsul, milli sərvət, adambaşına düşən gəlir* və s. göstəricilər kifayət etmir. Çünki həmin göstəricilər sosial-iqtisadi münasibətləri şərtləndirsə də onları tamamilə adekvat olaraq müəyyən etmir. Artıq XX əsrin son onilliklərində bu problem məsələnin həlli müasir iqtisadi-elmi araşdırmaların aparılmasını zəruri etmiş və insan inkişafı getdikcə yalnız iqtisadi göstəricilər ilə deyil,

həm də insanların cəmiyyətin inkişafında rolundan, onların söz və vicdan azadlığından, siyasi fəaliyyətdə rolundan, dövlətin idarə olunmasında fəaliyyətindən, qanun qarşısında bərabərliyindən, yaşına, cinsinə və milli mənsubiyyətinə görə diskriminasiyadan, müdafiəsindən asılı olmağa başlamışdır. Doğurdan da, müəyyən mənada, iqtisadi göstəricilərə malik olan, dünyəvi dəyərlərə can atan hər hansı ziyalının bu dəyərlərdən məhrum olması həmin insanın inkişafına mane olan amillərdir.

Bu məqsədlərlə uzun sürən tədqiqatlardan sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) birbaşa təsiri və rəhbərliyi altında dünya ictimaiyyəti onillik inkişaf proqramını işləyib hazırlamağa başladı.

Qeyd etmək lazımdır ki, qloballaşma prosesində insan probleminin öyrənilməsi həm təbiət, həm də humanitar elmlər üçün xüsusi əhəmiyyətə malikdir. Bu ondan irəli gəlir ki, iqtisadi dirçəliş, yeni texnologiyaların istifadəsi, insan-təbiət münasibətlərinin gərginləşməsi, təhsil, səhiyyə, sosial təminat sisteminin təkmilləşdirilməsi zərurəti insana aid problemlərin iqtisadi aspektdə işlənib hazırlanmasını tələb edir. Bu baxımdan müasir cəmiyyətdə sosial-iqtisadi, hüquqi-mənəvi dəyişikliklərin öyrənilməsi, bütünlükdə sivilizasiyanın davamlı inkişafının elmi cəhətdən proqnozlaşdırılması üçün insan kapitalının inkişafının strateji istiqamətlərinin tədqiq edilməsi xüsusi aktuallıq kəsb edir.

Əslində inkişafın əsas məqsədi insanların azadlığının genişləndirilməsindən ibarətdir. Həmin proses bərabər səviyyələrdə bütün sahələrdə fayda gətirməlidir və onlardan hər birinin iştirakına əsaslanmalıdır. Qeyd edək ki, yaranmış zərurətdən irəli gələn bu problem 1990-cı ildə Rio de-Janeyro şəhərində keçirilən BMT-nin Sammitində ölkələr arasında insan inkişafı səviyyəsini qiymətləndirmək üçün "İnsan potensialının inkişafı" və "İnsan potensialının inkişafı indeksi" adlanan yeni kateqoriya iqtisadi terminologiyaya əlavə edildi. Bu kateqoriyaya görə insan inkişafında təkcə gəlirlər deyil, onların sağlamlığı, təhsilin səviyyəsi, ətraf mühitin qorunması və s. şərtlər də nəzərə alınmışdır. Həmin ildən bu quruma daxil olan ölkələrə "İnsan İnkişafına" dair hesabatların hazırlanması təklif olunmuşdur. Bu indeks bütövlükdə ***"İnsan Potensialının İnkişafı indeksi"*** adlanır və bütün dünya ölkələri üzrə hesablanır. Bu da dünya ölkələrinin sosial-iqtisadi göstəricilərini müqayisə etməyə imkan verir.

İnsan potensialının inkişafı dörd vacib paradiqmaya - uzun və sağlam həyata, biliyə, layiqli həyat üçün tələb olunan resurslara malik olmaya və ictimaiyyətin həyatında iştiraka diqqət ayırır.

İnkişafın bu paradiqması əsasında dayanan ideyalar yeni deyildir, onlar hələ Aristotellə bağlıdır. Aristotel sübut edir ki, "sərvət bizim cəhd etdiyimiz nemət deyildir, belə ki, o, nəinsə naminə faydalıdır". İmmonuel Kant oxşar formada israr edirdi ki, insan məxluqlarına digər məqsədlərinə nail olunması üçün vasitə kimi deyil, birbaşa məqsəd kimi baxılmalıdır. Oxşar fikirlər Adam Smitin, Robert Maltusun, Con Styuart Millin və s. əsərlərində də öz əksini tapmışdır. İqtisadi artıma yalnız vasitə kimi baxıla bilər, lakin həmin vasitə ilə vacib məqsədlərə nail olunması asanlaşır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, insan kapitalı əksər qərb iqtisadçılarının müəyyən etdiyi kimi insana məxsus

əldə edilən biliklərdən, təcrübədən, enerjidən və s. ibarətdir və bunlar müəyyən vaxt ərzində malların istehsalı və xidmətlərin görülməsi məqsədi ilə də istifadə edilə bilər. Həmin biliklərin, təcrübənin qazanılmasını, sağlamlıqlarının qorunmasını və yüksəldilməsini təmin etməklə xidmət müddətinin və keyfiyyətinin artırılması və mənəvi tələbatın ödənilməsi üçün maddi təminatın yüksəldilməsi yollarının araşdırılmasını təmin etmək isə insan potensialının inkişafı probleminin tədqiqi ilə bağlıdır.

Qeyd edək ki, əldə edilmiş potensialın malların istehsalı və ya xidmətlərin göstərilməsinə yönəldilməsini insan kapitalı, insanların maddi və mənəvi tələbatlarının ödənilməsi isə həyat səviyyəsi ilə əlaqəlidir. Məhsul istehsalının, xidmətlərin və s. keyfiyyətinin yüksəldilməsi istiqamətində bilik və bacarıqların artırılması və yeni texnologiyaların yaradılması və ya tətbiqi sayəsində yüksək nailiyyətlərin əldə edilməsi, sağlamlığının qorunması, gözlənilən ömür müddətinin yüksəldilməsi ilə xidmət müddətinin artırılmasının təmin edilməsi nəticəsində maddi və mənəvi tələbatın dolğun şəkildə ödənilməsi isə insan potensialının inkişafı ilə bağlıdır.

Göründüyü kimi insan kapitalının inkişafı məsələsinin tədqiqi zamanı insan kapitalı və həyat səviyyəsinin məcmusu istiqamətində araşdırmaların aparılması daha məqsədəuyğun olardı.

Cəmiyyət üzvlərinin əməyə qarşı bacarıqlarının yığılması, fərdi işçi qüvvəsinin inkişafı xeyli canlı və maddiləşdirilmiş zəhmət xərci tələb edir. Bu, insanda maddiləşdirilmiş əməyin spesifik növü hələ ki, nisbətən az tədqiq edilmiş olaraq qalır. V.S.Qoylonun yazdığı kimi, "ictimaiyyətin əsas istehsalat gücünün inkişafı və yaranma texnologiyası iqtisadi elm tərəfindən az öyrənilib". Bu istiqamətdə aparılan tədqiqatlardan aydın olur ki, 1960-cı illərdən başlayaraq, əməyin keyfiyyətinə, xüsusilə işçi qüvvəsinin təhsil səviyyəsinə və peşəkar hazırlığına güclü maraq yönəlmişdir. Məhz həmin illərdə fərdi iqtisadi və sosial fayda verən insanların biliyini, vərdişini və digər xüsusiyyətlərini təcəssüm etdirən insan kapitalı konsepsiyası meydana çıxmışdır. Bunun əsasında "Çikaqo məktəbi"nin nümayəndələri - Nobel mükafatı laureatları Teodor Şults, Herri Bekker, Barton Veysbord, Corc Mincer, Li Xansen kimi tanınmış amerika iqtisadçıları dururdu.

Bundan başqa Alfred Marshall, Mark Blauq, S.Bouls, Joram, Riçart Reyat, F.Uelç, B.Çizviki və s. elmi tədqiqatları ilə onu daha da inkişaf etdirdilər.

"Çikaqo məktəbi"nin nümayəndələri hesab edirdilər ki, təhsilə, səhiyyəyə, miqrasiyaya və digərlərinə yönəldilən investisiyalar gələcəkdə böyük gəlirlər əldə etmək məqsədi ilə səmərəli şəkildə qoyulur. İnsan kapitalına qoyulan investisiya və xərclər ailə və bütün cəmiyyət üçün faydalı olmaqla, maddi tələbatın yüksəldilməsinə xidmət edir.

Henri Bekkerin "İnsan kapitalı" əsərində insanın motivlərinin və davranışının bəzi aspektlərinə, həmçinin ona aid olan fiziki, emosional və mənəvi sağlamlığa insan kapitalı kimi baxılırdı.

İnsan kapitalı nəzəriyyəsinin modeli nəzəri səviyyədə gələcəkdə rifahın yaxşılaşdırılması nöqteyi - nəzərindən insan kapitalına investisiyanın səmərəliliyini

qiymətləndirməyə imkan verir. Güman edilir ki, həm xərclər, həm də belə qoyuluşdan qayıtma müxtəlif formalarda mövcud olur.

***Birbaşa xərclər*** - kitablar, təhsil haqqı, istiqrazların və ssudaların ödənilməsi;

***Dolayı xərclər*** - əldən buraxılmış xərclər, hansı ki, təhsil alma zamanı əldə etmək olardı.

***Birbaşa qaytarma*** - bu ali təhsili olmayan işçi ilə müqayisədə gələcəkdə əmək haqqının əlavə axınıdır.

***Dolayı qaytarma*** - bu əməyin yaxşılaşdırılmış şəraiti, karyera perspektivi, sosial təminat, daha yüksək sosial və ictimai status və s. kimi ixtisaslı işçilərin əldə etdikləri pulsuz əlavə faydadır.

Tədrisin gedişində yığılmış insan kapitalı, həmçinin işin gedişində qazanılmış vərdişlər özündə əmək haqqının potensial artımı yaxud daha prestijli işin əldə edilməsi üçün dəyəri təşkil edir. İnsan kapitalı nəzəriyyəsi nəzərdə tutur ki, əmək haqqı səviyyəsindəki fərqlər müxtəlif işçilərin əmək məhsuldarlığındakı fərqləri əks etdirir. Təcrübəli işçilər daha yüksək son məhsuldarlığa malikdir və daha çox qazanırlar. İnsan kapitalının aksioması, təhsilin alınmasına böyük investisiyalar əmək haqqının böyük həcmini təmin etdiyi təqdirdə məqsədəuyğun olan vəziyyətdir.

1974-cü ildə C.Minser "Təhsil: təcrübə və gəlir" kitabında göstərirdi: "Yüksək təhsilli mütəxəssislər tərəfindən qazanılan gəlir yaxud əmək haqqı, faiz dərəcəsinin nəzərə alınması ilə ali məktəbdə bütün tədris dövrü ərzində yığılmış və toplanmış ali təhsilə investisiyalarda "kapitallaşmış mənfəətdir". Beləliklə, mütəxəssisin əmək haqqının iki hissədən toplanması haqqında danışmaq olar:

***Əsas əmək haqqı*** - bu ildə edilmiş əmək sərfinə görə mütəxəssisin mükafatlandırılmasıdır.

***Əlavə əmək haqqı*** - bu keçmişdə həyata keçirilmiş tədris əməyinin sərfinə görə mükafatlandırmaqdır.

Adətən, "insan kapitalı" ancaq qazanılmış vərdiş və biliyin əsasında təyin edilir və ölçülür, halbuki insanın təbii xüsusiyyətlərini və xarakteristikalarını birləşdirən insan kapitalının daha geniş anlayışı müxtəlif dərk edilməmiş vərdiş və digər xüsusiyyətlərin rifahın yaradılmasında necə iştirak etdiyini daha adekvat göstərir və tədrisi də daxil etməklə ətraf mühitin təsiri altında öz şəklini dəyişə bilər. İnsan kapitalı xüsusilə mədəni mühitdə inkişaf edir.

Vərdişin və biliyin öyrənilməsi və qazanılması anadan olandan ölənədək olur. Bütün həyatı müddətində fasiləsiz təhsil almaq konsepsiyası sadəcə yaşlıların təhsil alma və peşəkar hazırlığın vacibliyini nəzərə çarpdırmır, həm də həyatın bütün mərhələlərində təhsil almanı nəzərdə tutur. İnsan kapitalı aşağıdakı daxil edilən kontekstdə inkişaf edir:

- Erkən uşaqlıq dövründə ailədə öyrətmə.
- Erkən uşaqlığı daxil etməklə, formal təhsili və peşəkar hazırlıq, məcburi məktəb təhsili, peşəkar yaxud ümumi təhsilin əlavə məcburi səviyyəsi, ali təhsil, əmək bazarında peşəkar təhsil, yaşlıların təhsil alması və s.

- İş yerində peşəkar hazırlama, həmçinin tədqiqat və innovasiya, yaxud, müxtəlif peşəkar birliklərdə iştirak etmək kimi xüsusi fəaliyyət vasitəsilə işdə təhsilinin artırılması.
- İş yerində, gündəlik həyatda və mülki fəaliyyətdə qeyri-formal olaraq bacarığının təkmilləşdirilməsi.

İnsan kapitalına belə geniş yanaşma insanı dehumanizmləşdirir, onu primitiv mexanizm səviyyəsinədək salmaqda olan məzəmmətlərə qarşı durmağa kömək edir. Qeyd edək ki, 1988-ci il insan kapitalı haqqında İƏİT-nin məruzəsində təsdiq olunur ki, insan kapitalı konsepsiyası biliklərdə və kompetensiyalarda əsası qoyulmuş iqtisadiyyatda insanın rolunu və əhəmiyyətini inandırıcı surətdə qeyd edir.

İnsan kapitalı öz təbiətinə görə müxtəlifdir. Vərdiş və kompetensiya müxtəlif hadisə və vəziyyətlər üçün ümumi (məsələn, oxumaq, yazmaq və danışmaq qabiliyyəti) yaxud yüksək spesifikli və qismən yararlı ola bilər. Lundvall və Cohnson (1994) biliyi dörd kateqoriya üzrə təsnifləşdirirlər:

1. Bilmək - nə: biliklərə faktlar aiddir.
2. Bilmək - nə üçün: biliklərə təbiətin prinsipləri və qanunları, insan şüuru və cəmiyyət aiddir.
3. Bilmək - necə: vərdişlərə aiddir (yəni, bacarıqla nə isə etmək).
4. Bilmək - kim: sosial qabiliyyətə müxtəlif insan tipləri ilə qarşılıqlı təsir və əməkdaşlıq aiddir.

Fiziki kapitaldan fərqli olaraq insan kapitalı insanlarda təcəssüm olunur. İnsan kapitalının fiziki kapital ilə analogiyası ondan ibarətdir: 1) investisiya qoyulması və fayda alınması arasında vaxta görə uyğunsuzluq olur; 2) müəyyən müddət ərzində fayda olur. Hər halda fiziki kapitaldan fərqli olması ondan ibarətdir ki, özgəninkiləşdirmənin və istehlakçı müstəqilliyinin adi qaydaları tətbiq edilə bilmir, o vaxt istehlakçı hansısa neməti ala və ona sahib ola bilmir. Təyin etməyə görə insan kapitalı fərddə təcəssüm olunur, bazarda onun xidməti satıla bilər, amma əslində insan kapitalına malik olma, qul halı istisna olmaqla, satıla yaxud ötürülə bilməz.

İnsan kapitalı formal və qeyri-formal təhsil almaq ilə istər işgüzar fəaliyyət prosesində, istərsə də ondan kənarda tətbiq etmə və təcrübə ilə artır, amma insan kapitalı əgər az istifadə olunarsa, qiymətdən düşmə tendensiyasına da malik olur. Bəzi vərdişlər yaşla əlaqədar yox olur və səylər müəyyən yaşa çatandan sonra insan kapitalının müşahidə olunan azalmasını qismən izah edir. Beləliklə, insan kapitalı həmişəlik fərdin qazandığı vərdiş və biliyinin oxşar və davamlı toplumu kimi təyin edilə bilməz.

İnsan kapitalına aid edilən bəzi aparıcı biliklər və şəxsi keyfiyyətlər aşağıdakı formada strukturlaşdırıla bilər:

1. Kommunikasiya (axırıncı punktlardan hər biri üzrə xarici dillərə malik olmanı daxil etməklə)
   - söhbətin başa düşülməsi;
   - danışmaq bacarığı;

- mütaliə;
- məktub.

2. Hesablama.
3. Şəxsiyyətdaxili vərdişlər:
   - motivlər / inad
   - "öyrənmənin öyrədilməsi" və şəxsi intizam (öyrədilmənin özü-özünü tənzimləyən strategiyasını daxil etməklə);
   - etik dəyərlərin və həyatın məqsədlərinin müvafiq toplumu əsasında nəticə çıxarmaq qabiliyyəti.

4. Şəxsiyyətlərarası vərdişlər:
   - komandada iş;
   - liderlik.

5. Digər vərdişlər və xüsusiyyətlər (bir çoxu yuxarıda göstərilən sahələrə aid olan):
   - informasiya və kompüter texnologiyalarının tətbiq edilməsinə qabiliyyət;
   - gizli bilik;
   - problemi həll etmək bacarığı (digər tip vərdişlərdə qismən təcəssüm olunur);
   - fiziki keyfiyyət və bacarıq.

Fukuyama qeyd edir ki, bütün iqtisadi fəaliyyət fərd tərəfindən deyil, təşkilatlar tərəfindən həyata keçirilir. Bu da sosial kooperasiyanın yüksək dərəcəsini tələb edir. "Təşkilatı kapital" biliyin, komandada işin, həmçinin davranış normalarının və təşkilat daxilində qarşılıqlı əlaqələrin yayılmasını əks etdirir, bu əslində təşkilat səviyyəsində sosial kapitaldır. Leana və Van Buren (1999) firma daxilində sosial əlaqələrin xarakterini əks etdirən resurs kimi təşkilatı kapitalı müəyyənləşdirirlər. Onlar təşkilatın bütün iştirakçılarının vahid məqsədə və qarşılıqlı inama istiqamətlənməsi vasitəsilə inkişafını müəyyənləşdiyini qeyd edirlər ki, bu da kollektiv kimi təşkilatın müvəffəqiyyətli fəaliyyətinə kömək edir. Tədqiqatçılar həmçinin hesab edirlər ki, kollektiv səylər və ya təşkilatı amillər inamı möhkəmləndirdiyi, kommunikasiyanı saxladığı və ümumi məqsədlərin və dəyərlərin qurulmasına kömək etdiyi zaman stimullaşdırılır.

Qəbul edilir ki, biliklərlə idarəetmə və biliyin bölünməsi fundamental surətdə yeni təşkilatı və texnoloji şəraitlərdə əsası qoyulmuş iqtisadiyyatda mərkəzi yer tutur. Biliyin, çevikliyin, inamın və qarşılıqlı əlaqələrin rolu sürətlə dəyişən iqtisadi mühit şəraitində fəaliyyətin yeni ideya və praktik üsullarının axtarışında xüsusi əhəmiyyət kəsb edir. Bir çox tədqiqatçılar "öyrədən iqtisadiyyat" ilə "yeni iqtisadiyyat" konsepsiyasını əlaqələndirirlər, orada şəbəkə, təşkilat və fərdin qabiliyyəti keyfiyyətcə yeni əhəmiyyət qazanıb biliyi öyrədir, dəyişir və tətbiq edir.

Təhsil vahidləri, yəni fərdin əldə etdiyi təhsil ilinin sayı, yaxud təhsilin qazanılmış səviyyəsi vərdişin və kompetensiyanın sadə və asan ölçülən göstəricilərinə xidmət edir. Onların çatışmazlığı ondan ibarətdir ki, onlar qeyri-formal peşəkar hazırlığın, yaxud təcrübənin köməyi ilə əldə edilmiş insan kapitalını əks etdirmir, bundan başqa müxtəlif

təhsil vahidləri (məsələn, müxtəlif ölkələrdə) çətin müqayisə edilir. Digər yanaşma tələbənin müvəffəqiyyət dərəcəsini, yaxud yaşlıların vərdişini qiymətləndirən testlərin və sorğu vərəqələrinin istifadə edilməsindən ibarətdir. Məsələn, Tələbələrin Beynəlxalq Qiymət Proqramı (the Proqramme for International Student Assessment (PISA)) və Yaşlıların Savadlılığının Beynəlxalq Təftişi (the International Adult Literacy Survey (IALS)). Oxşar yoxlamalar vərdişin və kompetensiyanın ancaq ayrı-ayrı aspektlərini təyin etməyə imkan verir və davranışın metodikası ilə əlaqədar məhdudiyyətlərdən asılıdır (seçimin həcmi, baxılan sualların və əhatə edilmiş ölkələrin dairəsi).

İnsan kapitalı dəyərinin qiymətləndirilməsi üçün, qazanılmış təhsildən asılı olaraq əmək bazarında həyat müddətində qarşıdakı əmək haqqı barədə məlumatları aqreqatlaşdırmaq təcrübəsinə başlanılmışdır. Belə yanaşma təşkilatlarda və digər kollektiv birliklərdə formalaşan “kollektiv bilik və vərdişlərin” vacibliyini nəzərə almır. Qeyd etmək lazımdır ki, buna baxmayaraq ki, insan kapitalı fərdin xüsusiyyəti kimi müəyyən olunur, təşkilatda keyfiyyət və kəmiyyətə görə müxtəlif insan kapitallarının aqreqatlaşdırılması və kombinasiyası fərdi kapitalların adi məbləğini keçən təşkilat səviyyəsində kompetensiyanı yaradır, yəni sinergetik effekt olur. Eyni zamanda qəbul edilir ki, fərdlər əsasən firma üçün spesifik insan kapitalına sahib olmadan tam renta əldə etmək iqtidarında olmur, belə ki, işverən (işə götürən) əslində onların spesifik vərdişlərinin vahid mümkün alıcısı kimi çıxış edir. Aqreqatlaşdırmaq xüsusi irəli çəkilmiş işçilərin kollektivində işin sayəsində kapitalın qarşılıqlı təsiri və artması payını nəzərə almağa imkan vermir. Və sonda belə yanaşma zamanı insan kapitalının aşkar olmayan, gizli, birmənalı olmayan formasını nəzərə almaq daha çətindir.

Mövcud yanaşmaların qeyd edilmiş natamamlılığı, insan kapitalına investisiya ehtiyatlarına olan tələbatı, beynəlxalq müqayisə səviyyəsində aydınlaşdırır. Bu formal indeksdə əsaslandırılmış insan kapitalı göstəricisinə təşkilatda bilik və vərdişlərin birbaşa qiymətləndirilməsinə əsaslandırılmış spesfik göstəricilər əlavə edilməlidir.

İnsan potensialının inkişafı səviyyəsini müəyyənləşdirən əsas konponentlərdən biri də həyat səviyyəsinin qiymətləndirilməsidir. Həyat səviyyəsi cəmiyyətin tələbatlarının ödənilməsi və inkişafını özündə birləşdirir. Beynəlxalq əmək təşkilatının konvensiyasının 25-ci maddəsinin “sosial siyasətin əsas istiqamətləri və normaları haqqında” bəndinə müvafiq olaraq, insan özünün və ailəsinin sağlamlığnı və firavanlılığını qorumaq üçün zəruri olan qida, paltar, mənzil, tibbi yardım və sosial xidmət də daxil olmaqla yaşayış səviyyəsini təmin etmək hüququna malikdir. BMT-nin zəmanətinə əsasən insanın sağlamlığını, istehlak səviyyəsini, məşğulluğunu, təhsilini, mənzil və sosial təminatını xarakterizə edən göstəricilər sistemi ilə ölçülür.

Əhalinin həyat səviyyəsinin əsas göstəriciləri bunlardır: adambaşına düşən milli gəlirin həcmi, onun əhalinin qrupları və sinifləri arasında bölüşdürülməsi, nominal və real əmək haqqı, ictimai istehlak fondundan güzəşt və ödəmələr. Başqa sözlə, həyat səviyyəsinə insanın maddi və mənəvi tələbatlarının ödənilməsi səviyyəsini xarakterizə

edən göstəricilər aid edilir. Buna qida, geyim, başqa xalq tələbatı malları, mənzil şəraiti, işləmək və dincəlmək imkanlarının təmin edilməsi daxildir.

Cəmiyyətin rifahının ümumiləşdirici göstəricisi kimi başqa bir mühüm kateqoriyadan - həyatın dəyəri indeksindən istifadə olunur. Lakin bu indeksin aydınlaşdırılmasından əvvəl bir sıra anlayışlara baxaq.

Yaşayış minimumu - kasıblığın ümumiləşdirici göstəricisi və ya şkalasıdır. Onun hazırlanmasında iki göstərici nəzərə alınır: minimum yaşayış büdcəsi və minimum istehlak büdcəsi.

Minimum yaşayış büdcəsi minimum fizioloji normalar nəzərə alınmaqla hesablanmış limit həyat standartıdır və onu hesablamaq üçün ərzaq səbətindən istifadə edirlir. Ərzaq səbəti ərzaq məhsullarının minimal normaları əsasında fiziki istehlaka və zəruri kaloriliyə müvafiq təşkil olunur.

Minimum istehlak büdcəsi isə istehlak ənənəsi, istehlakçı bazarının konyunkturu əsasında hesablanır. Buna görə də bu göstərici yaşayış səviyyəsinin nisbətən yüksək standartıdır. Adətən onların nisbətini 1:2 kimi qəbul edirlər.

“Minimum istehlak büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən “minimum istehlak büdcəsi cəmiyyət tərəfindən onun indiki inkişaf dövründə mümkün olan minimum səviyyə kimi qəbul edilmiş həddən aşağı olmayan səviyyədə insanın fizioloji və sosial-mədəni tələbatının ödənilməsini təmin edəcək istehlak mallarının və xidmətlərinin dəyərini əks etdirir”.

Minimum istehlak büdcəsi istehlak səbəti əsasında hesablanır. İstehlak səbətinin dəyəri minimal istehlakçı büdcəsini verir. Minimum istehlak büdcəsi - minimal səviyyədə maddi nemət və xidmət istehlakını əks etdirir. Deməli, o, ən vacib məhsullar və xidmətlərin toplusunu özündə əks etdirməlidir. Ən rasional istehlak büdcəsi ərzaq - 46,1%, qeyri-ərzaq - 39%, xidmətlər - 13,2%, vergilər və ödəmələr - 2,7% kimi qəbul olunur.

Yaşayış minimumu əsasında həyatın dəyəri indeksi hesablanır. Həyatın dəyəri istehlak qiymətləri və istehlak strukturundan asılıdır. Bu faktora istehlak tələbinin dəyişməsi, bazar konyunkturunun vəziyyəti və s. təsir edir. Həyatın dəyəri indeksinin qiyməti əhalinin rifah səviyyəsinə təsirini əks etdirməlidir. Bu məqsədlə, qeyd olunmuş həyat səviyyəsinin qiymətlərin dəyişməsi zamanı saxlanılması məqsədilə zəruri hesab edilən xərclər müqayisə olunur. Bu göstəriciləri hesablayan zaman əhalinin müəyyən qrupunun xərclər strukturuna müvafiq istehlakçı nemətləri (istehlakçı səbəti) təyin olunur. Bu yığımın dəyəri cari və baza qiymətlərində hesablanır, sonra isə bu kəmiyyətlər müqayisə olunur:

$$\text{İ}h.d = Y M\text{İ} / Y M0$$

Burada, YMİ və YM0, müvafiq olaraq, cari və baza ilində yaşayış minimumudur. Lakin nəzərə almaq lazımdır ki, belə hesablamalar həyat səviyyəsinin dəyişməsini deyil, yalnız

qiymətlərin bu səviyyəyə təsirini əks etdirir. Belə bir nəticəyə gələ bilərik ki, həyatın dəyəri indeksi yaşayış minimumuna daxil olan məhsulların qiymətlər indeksini əks etdirir.

Əhalinin mal və xidmətlər ilə istehlak səviyyəsi, maddi tələbatı ödəmə imkanları, ömrün uzunluğu, ətraf aləmin vəziyyəti və s. həyatın keyfiyyəti kimi qiymətləndirilir. Qeyd etmək lazımdır ki, bu anlayışların bir çoxunu kəmiyyətcə ölçmək mümkün deyil. Bu isə əhalinin həyat keyfiyyətinin təyin edilməsi prosesini çətinləşdirir.

Həyatın keyfiyyəti səviyyəsi cəmiyyətin sosial-iqtisadi vəziyyətindən asılı olaraq dəyişir və insanın inkişafı konsepsiyası ilə sıx əlaqədədir. Yaşayış minimumunun həcmi insanın həyat fəaliyyətinin saxlanması üçün lazım olan qida məhsullarının natural toplusunun dəyər qymətləndirilməsini, həmçinin qeyri-ərzaq malları və xidmətlərə, vergi və məcburi ödəmələrə xərcləri özündə əks etdirir.

Göründüyü kimi insan potensialının inkişafı sosial tərəqqi tendensiyalarını təhlil etməklə cəmiyyətdə hər bir fərdin vəziyyətinin müxtəlif indikatorlar vasitəsilə çoxcəhətli dəyərləndirilməsinə əsaslanır. Digər inkişaf problemlərindən fərqli olaraq, İPİ problemi insan həyatının təkcə iqtisadi tərəflərini yox, eyni zamanda, onun sosial aspektlərini də (təhsil, səhiyyə, ekologiya, demoqrafiya mədəniyyət, ailə, məişət və s.) əhatə edir. İnsan inkişafı ictimai həyatın bütün sahələrində fərdin inkişaf imkanlarının genişləndirilməsi prosesinin əsas istiqamətlərinin göstəricisidir. Daha dəqiq desək İPİ-nin mahiyyəti hər bir insanın fərdi qabiliyyətinin həyata keçirilməsi üçün əlverişli sosial, iqtisadi və ekoloji şəraitin yaradılmasından ibarətdir.

Bəzi alimlər haqlı olaraq hazırkı şəraitdə ictimai tərəqqinin vəziyyətini - iqtisadi inkişafla yanaşı insanların cəmiyyətdəki vəziyyətilə, o cümlədən onların sağlamlıq, uzunömürlülük və dünya görüşü səviyyəsi, mənəvi-psixoloji vəziyyəti ilə müəyyənləşdirilməsini irəli sürürlər. Məsələn, S.D.Valenteyə görə iqtisadiyyatdakı nailiyyətlərin əsas ölçüsü istehsal və istehlakın həcmi ilə deyil, adamların mənəvi dünya görüşünün səviyyəsi, insanların fiziki və psixoloji sağlamlıq vəziyyəti ilə də şərtlənir.

Əvvəlki dövrlərlə müqayisədə informasiya cəmiyyətində fərdlərin davranış motivləri dəyişir. Hazırki qloballaşma prosesində insan amilinin rolu daha da yüksəlir.

Məlumdur ki, hazırda cəmiyyətin bütün sahələrində informasiya texnologiyasının genişlənməsi mühüm rol oynayır. Lakin mövcud informasiya texnologiyasının hansı istiqamətdə (xeyir və şərə, tərəqqi və tənəzzülə, sülh və müharibəyə) xidmət etməsi bilavasitə insanlardan asılıdır. Mürəkkəb informasiya cəmiyyətində həyat fəaliyyətinin bütün sahələrində kiminsə iradəsini yerinə yetirən sadə icraçı əvəzinə təbiətlə cəmiyyətin tarazlığı kontekstində insan inkişafının qlobal mahiyyətini dərk edərək, cəmiyyətin ümumi tərəqqisinə çalışan mənəvi-psixoloji cəhətdən yetkin, geniş dünya görüşünə malik şəxsiyyətlərin olması daha zəruridir. Bu inkişafa xidmət edən faktorlardan biri də mənəvi-psixoloji amillərin formalaşmasıdır. Xüsusi metodoloji prinsip kimi dövlət idarəçiliyi praktikasına yönəlmiş insan inkişafı keçən əsrin 90-cı illərində bir çox ölkələriin və BMT-nin diqqət obyektinə çevrilmişdir. Bu məqsədlə BMT-nin təşəbbüsü və dəstəyi ilə 1990-

cı ildən başlayaraq əksər ölkələrdə (Azərbaycanda 1995-ci ildən) hər il "İnsan inkişafı haqqında hesabat" adlı toplu nəşr edilir. Əvvəllər bu hesabatda hər hansı bir ölkənin iqtisadi vəziyyətini xarakterizə edən adambaşına düşən orta illik gəlirin miqdarı insan potensialının inkişaf indeksi kimi ənənəvi kəmiyyət göstəricilərindən istifadə olunurdu.

Keçən əsrin 90-cı illərinin sonuna yaxın isə BMT ekspertlərinin təklifi ilə insan inkişafının göstəriciləri kimi daha geniş kriteriyalar irəli sürməyə başladı. BMT ekspertlərinin irəli sürdüyü bu kriteriyalar: gözlənilən orta ömür, əhalinin savadlılıq dərəcəsi (milli təhlükəsizlik dedikdə - burada sağlamlıq, uzunömürlülük, insan ləyaqətinin qorunması problemləri nəzərdə tutulur) və s. əhatə edirdi.

Sözün geniş mənasında beynəlxalq ekspertlərin fikrincə, bu göstəricilər insan nəslinin təkrar istehsalı və insanın həyat fəaliyyətinin təhlükəsizliyini təmin edən fiziki və ruhi sağlamlığı, bilik və ixtisas səviyyəsini, cəmiyyətin sosial strukturuna adaptasiyası, mədəni dəyərlər yönümünü, mənəvi-psixoloji vəziyyəti əhatə edir.

Artıq XX əsrin sonunda insan inkişafı metodologiyası dəyişikliyə uğrayaraq "insanlar iqtisadiyyatın inkişafına yox, iqtisadiyyat insanların inkişafına xidmət etməlidir" prinsipinə əsaslanmağa başladı. Bu prinsip onunla izah olunur ki, müasir iqtisadiyyatı inkişaf etdirmək üçün azad, sağlam düşüncəli, müəyyən intellektual səviyyəyə malik insanlar lazımdır. Bu baxımdan müəyyən ölkələrin insan inkişafı hesabatları hazırlanarkən sosial-demoqrafik statistikanın vahid sistemi yaradılmışdır. Məsələn, rus alimlərindən S.D.Valentiyev və L.İ.Nesterovun məlumatına görə bu sistem insan inkişafının müxtəlif aspektlərini əhatə edən 12 məlumat blokundan ibarətdir:

1. Demoqrafik xarakteristikası;
2. Ətraf mühit, urbanizasiya və mənzil-məişət şəraiti;
3. Sağlamlıq və qidalanma (içməli su təminatı);
4. Təhsil;
5. İqtisadi fəallıq;
6. Sosial qruplar və əhalinin təşkil olunma səviyyəsi;
7. Sosial təminat;
8. Mədəniyyət və dostluq;
9. Vaxtdan səmərəli istifadə;
10. İctimai qaydalar və təhlükəsizlik;
11. Sosial münasibətlər;
12. Siyasi fəaliyyət.

İnsan inkişafının müxtəlif aspektləpini əhatə edən, yuxarıda göstərilən bloklar insanın həyat və fəaliyyətinin, demək olar ki, bütün sahələrini əhatə edir.

İnsanın həyat fəaliyyəti prosesinin idarə edilməsi problemi insan potensialının qorunması və inkişafı sahəsində qlobal siyasətin qarşısında duran əsas vəzifələrdən biridir. Bu informasiya əsrində təbiət-cəmiyyət münasibətlərini dərindən anlamaq üçün yeni həlledici metodoloji prinsiplərdən birinə çevrilməkdədir.

İPİ həm milli, həm də beynəlxalq cəhətləri özündə birləşdirir. Belə ki, ayrı-ayrı ölkələrdə insan potensialının inkişafı üçün müvafiq şəraitin təmin edilməsi, sosial tərəqqinin əsas şərti olan insan faktorunun adekvat olaraq yaxşılaşmasına imkan yaradır. Yaxud beynəlxalq qurumların, o cümlədən BMT-nin davamlı inkişaf modelinə keçilməsi, dünya ölkələrinə təklif etməsi İPİ-nin beynəlmiləl xarakter daşıdığını göstərir. Bu baxımdan insan inkişafının yaxşılaşdırılması yolunda mövcud potensialı göstərən bu inkişaf göstəricilərinin qiymətləndirilməsi hər bir ölkənin sosial-iqtisadi və siyasi inkişafında mühüm rol oynayır.

## *İNSAN KAPİTALININ İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ METODOLOGİYASI*

Uzun illər cəmiyyətin iqtisadi inkişafı və ayrı-ayrı ölkələrdə tərəqqinin kriteriyası ÜDM-in və ÜMM-in adambaşına düşən həcmi ilə ölçülürdü. İnkişafın bu göstəriciləri ikinci dünya müharibəsindən sonra BMT, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən təklif edilmişdir.

Lakin ictimai inkişafın gedişində məlum oldu ki, ÜDM-in adambaşına düşən həcmi əsas göstəricilər sistemi kimi insan inkişafının real vəziyyətini tam əks etdirmir. Daha doğrusu bu göstəricilər təbiət-cəmiyyət münasibətləri dairəsində mövcud sistemin yalnız birinin iqtisadi tərəfini göstərir.

Bizim fikrimizcə insan inkişafının inteqral göstəriciləri üçün 1992-ci ildən (Rio konfransından) bəri BMTİP tərəfindən tətbiq olunmuş insan inkişafı indeksi daha real və perspektivli ola bilər.

Hazırda beynəlxalq təşkilatlar (BMTİP, DB) tərəfindən irəli sürülən və müxtəlif səviyyəli ölkələrdə insan inkişafının əsas parametrlərini adekvat əks etdirən indikatorlar şəbəkəsi aşağıdakı cədvəldə təqdim olunmuşdur. Cədvəldə təqdim olunan bu indeksləri respublikamızın indiki şəraitində məqbul hesab etmək olar.

Göründüyü kimi bir çox sosial-iqtisadi göstəriciləri özündə birləşdirən bu indikatorlar şəbəkəsi informativ xarakter daşıyır və burada hesablama mexanizmi müxtəlif ölçü vahidlərini ayrı-ayrılıqda araşdırmağa imkan verir. Bu indekslər əsasən gözlənilən ömür müddəti, yaşlı əhalinin savadlılıq dərəcəsini, ÜDM-in adambaşına düşən həcmi indekslərini özündə əks etdirir.

Qeyd etdiyimiz kimi insan potensialının inkişafı səviyyəsinin qiymətləndirilməsi üçün istifadə olunan göstəricilərdən biri də gözlənilən ömür müddəti indeksidir. Bütün ömrü boyu əhalinin sağlamlığının hər bir sahəsini əhatə edən səhiyyə proqramlarının

işlənilməsi və həyata keçirilməsi əhalinin sağlamlığının qorunması və işçi qüvvəsinin keyfiyyətli işini təmin etməklə bərabər ömür müddətinin uzadılmasına təkan verir.

*Cədvəl 1*

**İnsan potensialının inkişafını müəyyənləşdirən əsas parametrlər**

| İndekslər | Orta ömür müddəti | Təhsil səviyyəsi | Həyat səviyyəsi |
|---|---|---|---|
| ***İnsan potensialı inkişafı indeksi*** | Gözlənilən ömür müddəti | Yaşlı əhalinin təhsil səviyyəsi | Əhalinin adambaşına düşən dəqiq gəliri |
| ***Gender amili nəzərə alınmaqla inkişaf indeksi*** | Qadın və kişilərin gözlənilən ömür müddəti | Qadın və kişilərin təhsil səviyyəsi | Qadın və kişilərin gəlir payı |
| ***İnkişaf etməkdə olan ölkələr üçün əhalinin yoxsulluq indeksi*** | 40 yaşa qədər yaşaya bilməyən əhalinin faizi | Yaşlı əhalinin təhsil səviyyəsi | 1. tibbi xidmətlərdən və təmiz içməli sudan əziyyət çəkən əhalinin faizi<br>2. normal çəkisi olmayan 5 yaşa qədər uşaqların faizi |
| ***İnkişaf etmiş ölkələr üçün yoxsulluğun indeksi*** | 60-yaşa qədər yaşaya bilməyən əhalinin faizi | Əhalinin avropa standartlarına uyğun təhsil səviyyəsi | Yoxsulluq səviyyəsi həddindən aşağı olan əhalinin faizi (adambaşı gəliri 20000 ABŞ dollarından (AQP-ilə) aşağı olan ölkələr üçün) |

Qeyd edək ki, ömür müddətinin uzadılmasına olan maneələrə ana və uşaq ölümü, xəstəlik dərəcələri baxımından, o cümlədən QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) və digər cinsi və reproduktiv səhiyyə problemlərinə, eləcə də endemik yoluxucu xəstəliklər olan malyariya, vərəm, mədə-bağırsaq xəstəliklərinə, su vasitəsilə keçən və keçici olmayan xroniki xəstəliklərə, xüsusi yoluxma meyli nəzərə alınmaqla hər bir vətəndaşın sağlamlığının mühafizəsi yönümündə görülən tədbirlər baxımından bütün dünya miqyasında inkişaf etmiş və kasıb ölkələr arasında fərq qoyulmadan həyata keçirilir. Bəzi ölkələrdə bir növ endemik, yoluxucu xəstəliklər insanların həyatlarına zərbə vurur, digər ölkələrdə isə yoluxucu olmayan ürək-damar, ciyər, hipertoniya və degenerativ xəstəliklər insanların xəstələnmə və ölüm hallarına əsas səbəblər olaraq qalır.

Qeyd edək ki, səhiyyə xidməti sistemlərində əsas diqqətin sağlamlığın optimal saxlanılmasına deyil, xəstəliklərin müalicəsinə yönəldilməsi də bu sahəyə kompleks yanaşmanın qarşısını alır. Bu baxımdan, ömür müddətinin uzadılmasında bir çox

ölkələrdə sağlamlığın vəziyyətini müəyyən edən iqtisadi və sosial faktorlara kifayət qədər diqqət verilmir. Belə ki, təmiz suyun, lazımi qidanın və təhlükəsiz tibbi sanitar şəraitin olmamağı, eyni ilə gender amilini lazımi dərəcədə nəzərə alan tədqiqat və texnologiyaların olmamağı, səhiyyə üzrə informasiyanın və səhiyyə xidmətinin, o cümlədən sağlamlıq üçün ekoloji və peşə riskləri ilə bağlı xidmətlərin göstərilməsində gender amilinin nəzərə alınmamağı, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrin vətəndaşlarının həyatına mənfi təsir göstərir. İnkişaf etməkdə olan ölkələrdə yoxsulluğun və inkişaf səviyyəsinin aşağı olması da həmin ölkələrin vətəndaşlarına yüksək keyfiyyətli tibbi xidmət göstərmələrinə və bu xidmətin əhatə dairəsinin genişləndirilməsinə imkan vermir. Maliyyə və kadr potensialının çatışmazlığı, bəzi hallarda isə səhiyyə sisteminin yenidən qurulması və onların özəlləşdirilməsinə meylin artması, səhiyyə xidmətlərinin keyfiyyətinin aşağı düşməsinə, xidmətin azalmasına və tibbi yardıma xüsusi ehtiyacı olan insanların sağlamlığına diqqətin azalmasına səbəb olur.

Qeyd edək ki, gözlənilən ömür müddəti indeksinin hesablanması və ölkələr arasında müqayisəli təhlillərin aparılması nəticəsində bu istiqamətdə (tibbi xidmət sahəsində) olan problemlərin aşkarlanaraq aradan qaldırılmasına imkan yaradır.

Bu zaman aşağıdakı göstəricilər müəyyənləşdirilməlidir:

- BMT İP tərəfindən müəyyən edilmiş yüksək həddə olan ömür müddəti, il
- BMT İP tərəfindən müəyyən edilmiş ən aşağı həddə olan ömür müddəti, il
- Tədqiq olunan ölkədə orta ömür müddəti, il

Qeyd edilən göstəricilər müəyyənləşdikdən sonra aşağıdakı düsturun köməkliyi ilə gözlənilən ömür müddəti indeksi hesablanır.

$$\textbf{İndeks} = \frac{\textbf{Faktiki qiymət - minimal qiymət}}{\textbf{Maksimal qiymət – minimal qiymət}}$$

Bu indeks hesablandıqdan sonra, dünya dövlətləri sırasında tədqiq olunan ölkənin ömür müddətinə görə inkişaf səviyyəsi müəyyənləşdirilir.

Yaşlı əhalinin təhsil səviyyəsi. Təhsilin insanların səlahiyyətlərinin genişləndirilməsini təmin edən ən qiymətli vasitələrdən biri olması getdikcə daha çox dərk edilir. BMT-nin İnsan İnkişafına dair hesabatlarında da qeyd edildiyi kimi, bütün regionlarda hər bir vətəndaşın təhsil alması üçün, o cümlədən yerli icmalarda imkansız və təcrid olunmuş qruplardan olan insanların maarifləndirilməsi sahəsində alternativ təhsil və təlim sistemləri yaradılmışdır ki, bu da onların təhsilin bütün sahələrində, o cümlədən qeyri-ənənəvi sahələrdə məşğul olmalarına, təhsil və təlim sistemində öz potensiallarının inkişaf etdirmələrinə təkan verir.

Təhsil səviyyəsi indeksi iki mərhələdə müəyyən edilir. Birinci mərhələdə əhalinin savadlılıq səviyyəsi (məktəbəqədər tərbiyə, ibtidai, orta, ümumtəhsil məktəblərində təhsil alma faizi) qiymətləndirilir. Belə ki, bu mərhələdə ümumi əhalinin sayında oxuyub yaza bilən şəxslərin xüsusi çəkisi müəyyən edilir.

Təhsilin ilk başlanğıcında məktəbəqədər tərbiyə durur. Məktəbəqədər tərbiyə ailədə və məktəbəqədər uşaq tərbiyə müəssisələrində həyata keçirilir. Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlar ailə ilə sıx əməkdaşlıq şəraitində tərbiyə olunurlar. Dövlət körpələrin tərbiyəsi, sosial müdafiəsi üçün maliyyə və maddi yardım göstərilməsinə təminat verir.

Məktəbəqədər tərbiyə müəssisələrinə körpə evləri, körpə evləri-bağçalar, uşaq bağçaları, ailə-bağçalar, məktəb-bağçalar, bağça-internatlar, uşaq evləri, ahıl evləri yanında uşaq evləri-internatlar, əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri və s. daxildir. Məktəbəqədər tərbiyə müəssisələrinə uşaqlar valideynlərin (və ya onları əvəz edənlərin) arzusu ilə qəbul olunurlar. Qeyri-dövlət məktəbəqədər tərbiyə müəssisəsi ilə valideynlər (yaxud onları əvəz edənlər) arasındakı hüquqi münasibətlər müqavilə ilə tənzimlənir.

Ümumi təhsil üç pillədən ibarətdir: ibtidai təhsil (I-IVsiniflər); əsas təhsil (V-VIII siniflər); orta təhsil (IX-XI siniflər). Üçüncü pilləni başa vuranlar tam orta ümumi təhsil alırlar. İbtidai, əsas və orta təhsil müəssisələri ayrı-ayrılıqda da fəaliyyət göstərə bilərlər. İbtidai təhsil 6 yaşdan başlayır.

14 yaşı bitmiş şagirdlər məktəb nizamnaməsinə əsasən məktəbdən çıxarıla bilər. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar qəyyumluq və himayə orqanlarının razılığı olmadan məktəbdən çıxarıla bilməzlər.

İbtidai və əsas təhsil pillələrində siniflərdə, günü uzadılmış qruplarda şagirdlərin orta sıxlığı, maddi-texniki baza imkan verdikcə, 20 nəfər müəyyən edilir. Siniflərin iki yerə bölünməsi müvafiq normativ sənədlə tənzim olunur.

Kənd yerlərində, zəruri hallarda, ibtidai və əsas təhsil pillələrində məktəb və ya ayrıca siniflər yaradılarkən şagirdlərin sayı nəzərə alınmır. Bu cür məktəblər və ya siniflər yerli təhsil orqanlarının qərarı ilə açılır.

Əsas təhsil məcburidir. Əsas təhsili başa vurmuş şagirdlər öz təhsillərini ümumtəhsil məktəblərinin orta təhsil pilləsində, incəsənət məktəblərində, peşə məktəblərində və peşə litseylərində davam etdirirlər.

Ümumtəhsil məktəblərinin üçüncü (orta təhsil) pilləsində təlim təbiət-riyaziyyat və humanitar təmayüllər üzrə aparılır. Xüsusi istedada malik şagirdlər üçün ixtisas sinifləri açılır.

Orta təhsil pilləsində, maddi-texniki baza imkan verdikcə, siniflərdə şagirdlərin orta sıxlığı 15 nəfər müəyyən edilir. Xarici dil dərslərində, habelə təlim qeyri-dillərdə aparılan siniflərdə azərbaycan dili dərslərində, ixtisas siniflərində, bədən tərbiyəsi və əmək təlimi dərslərində siniflər iki yerə bölünür.

Xüsusi istedadı olan şagirdlər üçün ümumtəhsil məktəblərinin üçüncü (orta təhsil) pilləsindən başqa ixtisaslaşdırılmış fənn məktəbləri, gimnaziyalar, liseylər və digər təlim-tərbiyə ocaqları yaradılır. Ayrı-ayrı fənn məktəbləri müvafiq ali məktəblərin nəzdində də fəaliyyət göstərə bilər.

İşləyən yurddaşların orta təhsil ala bilməsi üçün ümumtəhsil müəssisələri bazasında axşam və qiyabi təhsil sinifləri, qrupları açılır. Ümumi təhsilin müəyyən olunmuş müddətdən əvvəl başa çatdırılmasına da yol verilir.

Peşə məktəbləri və peşə liseyləri müxtəlif peşədən olan sənətkarlara tələbi ödəyən, həmçinin Azərbaycanın unudulmuş və sıradan çıxmaqda olan nadir və ənənəvi sənətkarlıq sahələrinin dirçəldilməsinə yönəldilən ilkin peşə təhsili müəssisələridir. Peşə məktəblərinə icbari təhsili başa vuran sənətə meyilli şəxslər, müxtəlif istehsal sahələrində peşə hazırlığını artırmaq istəyən, həmçinin peşəsini dəyişdirmək arzusunda olan gənclər qəbul olunurlar. Ayrı-ayrı hallarda ümumi əsas təhsili olmayanların da ilkin peşə təhsili almasına şərait yaradılır. Orta təhsilli gənclər də arzularına uyğun olaraq ilkin peşə məktəblərində təhsil ala bilərlər. Peşə məktəblərində orta təhsil verilmir. Vətəndaşların müxtəlif peşələr öyrənməsi, ixtisasını artırması və yeni ixtisasa yiyələnməsi üçün peşə məktəblərindən əlavə tədris kombinatları kurslar, iri istehsal müəssisələri nəzdində müxtəlif peşə kursları da fəaliyyət göstərir. Peşə liseylərinə qəbul olunan gənclər üç-dörd il ərzində nisbətən mürəkkəb peşələrə yiyələnməklə bərabər, orta təhsil də alırlar. Peşə liseylərində ümumi orta təhsili başa vurmuş gənclər üçün də müvafiq qruplar təşkil olunur. Peşə məktəbləri və peşə liseylərinin tədris qruplarında orta sıxlıq, maddi-texniki bazadan asılı olaraq 15 nəfər müəyyən edilir. Qrupların iki yerə bölünməsi müvafiq normativ sənədlə tənzim olunur. Xarici dil dərslərində, habelə təlim qeyri-dillərdə aparılan siniflərdə azərbaycan dili dərslərində, ixtisas siniflərində, peşə-ixtisas fənləri, istehsalat təlimi və bədən tərbiyəsi dərslərində siniflər iki yerə bölünür. Peşə tədris müəssisələri dövlət sifarişi, həmçinin idarə, müəssisə, təşkilat, ayrı-ayrı vətəndaşlarla bağlanmış müqavilələr əsasında fəaliyyət göstərir. Peşə-tədris müəssisələrinin uzunmüddətli müqavilələr əsasında kadr hazırladığı baza müəssisələri də ola bilər. Ayrı-ayrı rayonlarda, o cümlədən kənd yerlərində ənənəvi sənət və məşğulluq sahələri üzrə peşə məktəbləri və peşə liseyləri açılır. Birliklərin, istehsal komplekslərinin, ali məktəblərin nəzdində də peşə-tədris müəssisələri: peşə məktəbi zavod, peşə məktəbi fabrik, peşə məktəbi fermer təsərrüfatı və digər özünümaliyyələşdirmə peşə ocaqları yaradıla bilər. Peşə məktəbləri və peşə liseyləri digər hüquqi şəxslərlə ortaq istehsalat müəssisəsi yarada bilərlər. Peşə-tədris müəssisələrinin məzunlarına öyrəndikləri peşəyə müvafiq olaraq müxtəlif dərəcələrdən olan sənətkar ixtisası verilir. Peşə-tədris müəssisələrində təhsilin gündüz və axşam formaları olur. Fiziki cəhətdən qüsurlu uşaqlar üçün xüsusi peşə kursları, məktəbləri və liseyləri açılır.

Orta ixtisas məktəbləri (texnikumlar, kolleclər və s.) orta ixtisas təhsili proqramlarını həyata keçirən tədris müəssisələridir. Həmin təhsil müəssisələri əsas və orta ümumi təhsil, peşə məktəbləri və peşə liseyləri bazasında fəaliyyət göstərməklə orta pillədən olan ixtisaslı mütəxəssislər hazırlayır, onları təkmilləşdirir və ixtisaslarını artırır. Əsas təhsili başa vurduqdan sonra orta ixtisas məktəbinə daxil olmuş vətəndaşlar orta ixtisas təhsili ilə yanaşı ümumi orta təhsil də alırlar. Ali məktəblərin nəzdində də müvafiq ixtisaslar üzrə texnikumlar, kolleclər fəaliyyət göstərə bilər. Orta ixtisas məktəblərini

bitirənlərə kiçik mütəxəssis dərəcəsi verilir. Tədris prosesini dünya standartları səviyyəsində qurmuş qabaqcıl texnikumların maddi-texniki bazası və kadr potensialı əsasında müasir kolleclər şəbəkəsi yaradılır.

Ali məktəblər (ali kolleclər, institutlar, konservatoriyalar, akademiyalar, universitetlər və s.) ali ixtisas təhsili proqramlarını həyata keçirən tədris müəssisələridir. Azərbaycanın ali məktəbləri konkret ixtisaslar verən tədris müəssisələri, çoxpilləli tədris kompleksləri, tədris-elmi komplekslər, tədris elmi-istehsalat-müalicə kompleksləri və başqa formalarda fəaliyyət göstərir. Onların nəzdində müxtəlif pillədən olan tədris müəssisələri (orta məktəblər, liseylər, peşə liseyləri, texnikumlar, kolleclər və s.), elmi-tədqiqat mərkəzləri və institutları, istehsalat müəssisələri, klinikalar, əczaxanalar və s. fəaliyyət göstərir. Azərbaycan Respublikasında ali təhsil orta təhsil bazasında həyata keçirilir. Ali məktəblərdə kadr hazırlığı əyani, qiyabi, axşam, həmin formaların birləşdirilməsi və eksternat yolları ilə həyata keçirilir. Əyani (gündüz) təhsil aparıcı rol oynayır. Müvafiq ixtisaslar üzrə qiyabi, axşam və eksternat yolu ilə ancaq bakalavr dərəcəsi verilə bilər. Ali məktəblərin seminar və praktiki məşğələ qruplarında tələbələrin orta sıxlığı, maddi-texniki baza və kadr hazırlığına olan tələbat nəzərə alınmaqla, 12-15 nəfər müəyyən olunur. Ali məktəblərin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: müxtəlif dərəcədən olan ali təhsilli mütəxəssislər hazırlamaq; elmi araşdırmalar aparmaq; yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrlar hazırlamaq; elmi və elmi-pedaqoji kadrların attestasiyasını keçirmək; ixtisasartırma və kadrların yenidən ixtisaslaşmasını təmin etmək; mədəni-maarifçilik, nəşriyyat, maliyyə-iqtisadi, təsərrüfat, elmi-istehsalat, kommersiya fəaliyyəti; xarici əlaqələr. Ali məktəblər dövlət sifarişləri, həmçinin idarələr, təşkilatlar, müəssisələr, habelə ayrı-ayrı şəxslərlə bağlanmış müqavilələr əsasında fəaliyyət göstərirlər.

Ali təhsil müəssisələrinin kadr potensialı, maddi-texniki bazası və ixtisasın xüsusiyyətindən asılı olaraq birpilləli, ikipilləli və üçpilləli ali məktəblərdə həyata keçirilir. Ayrı-ayrı pillələrdə təhsil müddəti tədris planı əsasında müəyyənləşdirilir və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. Birpilləli ali məktəblərdə (institutlarda, konservatoriyalarda, ali kolleclərdə və s.) müəyyən peşə istiqaməti və ya konkret ixtisaslar üzrə ali təhsilli mütəxəssis hazırlanır, sahə (fakültə) elmi şurasının qərarı ilə bakalavr ixtisası və elmi dərəcəsi verilir. İkipilləli ali təhsil müəssisələrinin birinci pilləsini bitirənlər müvafiq dövlət standartına uyğun olaraq ümumi ali təhsili başa vurur, sahə (fakültə) elmi şurasının qərarı ilə bakalavr elmi və ixtisas dərəcəsi alır, əmək fəaliyyətinə başlayır. Bakalavr dərəcəsi almış mütəxəssislərin ən istedadlı və ümidverən hissəsi müsabiqə əsasında magistraturada saxlanılır. Magistratura üçün keçirilən müsabiqələrdə əvvəllər bakalavr dərəcəsi almış məzunlar, birpilləli ali məktəblərin məzunları da iştirak edə bilərlər. Magistraturada dərin ixtisaslaşdırma aparılır, elmi araşdırma bacarığının və vərdişlərinin formalaşdırılmasına, xarici dillərin öyrədilməsinə xüsusi diqqət yetirilir. Magistraturanı başa vuranlar müdafiə etdikləri elmi işə görə ixtisaslaşdırılmış elmi şuranın qərarı ilə magistr ixtisası və elmi dərəcəsi alır və ixtisas

üzrə fəaliyyətə başlayırlar. Kadr potensialı və maddi-texniki bazası imkan verən bəzi universitetlər və akademiyalar üçpilləli təhsil sisteminə keçirlər. Bu cür ali məktəblərdə magistr dərəcəsi verilərkən xüsusi elmi hazırlıq, bacarıq və konkret elmi nəticə nümayiş etdirmiş məzunlar ixtisaslaşdırılmış elmi şuranın qərarı ilə üçüncü pillədə doktoranturada saxlanmağa məsləhət görülür, müvafiq imtahanlar verdikdən sonra doktoranturada araşdırmalarını davam etdirirlər. Ancaq doktoranturanı başa vurub ixtisaslaşdırılmış elmi şurada doktorluq dissertasiyası müdafiə etmiş və doktor elmi dərəcəsi almış yüksək ixtisaslı mütəxəssislər ali məktəblərin magistratura pilləsində fəaliyyət göstərə bilərlər. Doktorlar həmçinin elmi-tədqiqat mərkəzlərində və institutlarında, müxtəlif pillədən olan tədris müəssisələrində və başqa sahələrdə fəaliyyət göstərirlər.

Əhalinin təhsil keyfiyyəti səviyyəsini müəyyən etmək üçün təhsilin bütün pillələri üzrə, yəni məktəbəqədər tərbiyə, ibtidai, orta, ümumtəhsil, peşə, orta ixtisas və ali məktəblərdə təhsil səviyyəsi müəyyənləşdirilir. Qeyd etmək lazımdır ki, hər bir tarixi mərhələdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Bütün dövrlərdə cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi-texniki tərəqqi isə təhsil sistemi qarşısında həlli vacib daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətinin sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, habelə zaman ötdükcə təbii resursların azaldığı müasir dövrdə təhsilin rolu artmaqdadır. Təsadüfi deyil ki, BMT XXI əsri ***"təhsil əsri"*** elan etmişdir. Qətiyyətlə demək olar ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında, insan potensialının inkişafına zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin, xüsusilə ali təhsilin rolu indiki qədər heç vaxt aktual olmamışdır.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, hazırkı mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. Təhlillər sübut edir ki, bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi hiss olunacaq dərəcədə yüksəkdir və təxminən 70 faiz təşkil edir.

İntellektual mülkiyyətin maddi mülkiyyətdən üstünlüyü ondan ibarətdir ki, xərcləndikcə çoxalır. Bəşəriyyətin minillik tarixi sübut edir ki, intellektual sərvət maddi sərvətdən qiymətlidir. İntellektual sərvət məhsuldar qüvvəyə çevrildikcə cəmiyyəti və insanları tərəqqiyə aparır.

***Texnoloji nailiyyətlər indeksi (TNİ)***: Məlumdur ki, hazırda cəmiyyətin bütün sahələrində informasiya texnologiyasının genişlənməsi mühüm rol oynayır.

TNİ aşağıdakı ***dörd komponentə*** əsaslanır:

***Müasir texnologiyaların yaradılması*** - müasir texnologiyaların yaradılması indeksi aşağıdakı göstəricilərdən asılıdır: hər sakinə düşən patent sayı, müəlliflik və lisenziya ödənişləri.

***Müasir texnologiyaların yayılması*** - müasir texnologiyaların yayılması indeksinə təsir göstərən amillərə mobil rabitədən və internet xidmətlərindən geniş istifadə və həmçinin, idxalda yeni və orta səviyyəli texnologiya məhsullarının alınması daxildir.

***Ənənəvi texnologiyaların yayılması*** - ölkədə mövcud olan ənənəvi sahələrin inkişaf etdirilməsi üçün bu texnologiyaların yayılmasından və davam etdirilməsindən bəhs edir.

***Peşə bacarıqları*** - peşə bacarıqları indeksi, texnoloji nailiyyətlər, insan potensialının dəyərləndirilməsinə imkan yaratdığı üçün, TNİ-nin ən vacib komponentlərindən biridir. Bu vacib göstərici orta təhsil alma müddətindən və universitet səviyyəsində tədrisə cəlb olunmuş əhalinin faizinə əsaslanır.

Beləliklə, insan potensialının inkişafında təhsil indeksini müəyyən etmək üçün bilik, yaşlı əhalinin savadlılıq səviyyəsi ($^2/_3$ əmsalı çəki ilə) və üçüncü pillənin ibtidai orta və təhsil ocaqlarında təhsil alanların ümumi kontingenti ($^1/_3$ əmsallı çəki ilə) ölçülür.

Qeyd etdiyimiz bu hesablamanı aydınlaşdırmaq üçün isə hər bir göstərici üçün istifadə olunan minimum və maksimum qiymətlər müəyyənləşdirilir. Buradan, indeksləri aşağıdakı cədvəldəki rəqəmlərdən istifadə edərək müəyyənləşdirilmiş formul üzrə hesablamaq olar:

***Cədvəl 2***

**İndeksin hesablanmasında istifadə edilən maksimal və minimal qiymət**

| Göstərici | Maksimum qiymət | Minimum qiymət |
|---|---|---|
| Yaşlı əhalinin savadlılıq səviyyəsi (%-lə) | 100 | 0 |
| Təhsil alanların ümumi kontingenti (%-lə) | 100 | 0 |

Bu formul aşağıdakı kimidir:

$$\textbf{İndeks} = \frac{\textbf{Faktiki qiymət - minimal qiymət}}{\textbf{Maksimal qiymət – minimal qiymət}}$$

***ÜDM hesablanması***

İPİİ - uzun və sağlam həyat və bilik göstəricilərindən əlavə insan inkişafına təsir edən əsas göstəricilərdən biri də adambaşına düşən ÜDM-dir. İnsan potensialının inkişafında Ümumi Daxili Məhsulun alıcılıq pariteti əsasında hər nəfərə düşən həddi ilə müəyyən edilir və aparılan qiymətləndirmə indeksi isə aşağıdakı düsturun köməkliyi ilə həyata keçirilir.

$$\textbf{ÜDM indeksi} = \frac{\textbf{Loqx - Loq 100}}{\textbf{Loq40000 - Loq100}}$$

Burada x - tədqiq olunan ölkədə hər nəfərə düşən ÜDM-in AQP əsasında qiymətidir.

Bu gəlir indeksi bir növ həyat səviyyəsi göstəricisini əvəz edir. Həyat səviyyəsi cəmiyyətdə yaşayan adamların tələbatlarının ödənilməsi və inkişafını özündə birləşdirir.

***Rasional istehlak büdcəsi*** qida məhsulları istehlakının elmi cəhətdən əsaslandırılmış normaları, ailənin geyim və ayaqqabı, ev əşyaları, dava-dərmanla, mədəni-məişət və təsərrüfatda işlənən predmetlər ilə təmin olunması əsasında formalaşır.

***Minimal istehlak büdcəsi*** – bu yaşlıların həyat fəaliyyəti, uşaqların artım və inkişafı, ahıl yaşda sağlamlığın saxlanılması, həmçinin digər ən lazımi tələbatların təmin olunmasına xərclərin örtülməsi üçün orqanizmin enerji sərfini örtən istehlakın fizioloji norması çərçivəsində insanın qidalanmaya tələbatını ödəməyə imkan verən gəlir səviyyəsidir.

Minimal istehlak büdcəsi cinsdən, yaşdan və yaşama zonasından asılı olaraq qiymətləndirilir. Minimum istehlak büdcəsinin həcmi, periodik olaraq, istehlak səbətinin qiyməti və dəyəri dinamikasının nəzərə alınması ilə yenidən baxılır.

Yuxarıda qeyd olunan amilləri nəzərə alaraq, respublika əhalisinin minimal istehlak büdcəsinin strukturuna daxil olan əsas məsrəflər aşağıdakı ardıcıllıqla hesablanmışdır.

***Qidalanma***

Qidalanma ilə bağlı xərclər Azərbaycan Dövlət Tibb Universitetinin "Qidalanma gigiyenası və kommunal gigiyena" kafedrası tərəfindən əhalinin müxtəlif yaş-cins və peşə qrupları üzrə enerji məsrəflərinə müvafiq olaraq işlənib hazırlanmış minimal qida məhsulları dəsti əsasında müəyyən edilmişdir. Bu zaman respublika əhalisinin qida məhsullarından faktiki istifadə etməsinin dinamikası və əhalinin qidalanmasının milli xüsusiyyətləri nəzərə alınmışdır.

Minimal qida məhsulları dəstinə qida rasionunun kalorilik dərəcəsini praktiki olaraq təmin edən, kimyəvi tərkib baxımından həm kəmiyyət, həm də keyfiyyətcə tam dəyərli sayılan bütün zəruri qida məhsulları nəzərdə tutulmuşdur. Bu qayda ilə tərtib edilən sutkalıq qida rasionuna daxil olan məhsulların kalorilik dərəcəsi adambaşına gündə 2607 kaloriyə bərabər olmalıdır. Onu da qeyd etmək lazımdır ki, kimyəvi tərkibi nəzərə alınan zaman yağların, zülalların və karbohidrogenlərin tərkib nisbəti müvafiq olaraq 1:1:4 nisbəti saxlanılır. Həmçinin minimal kalori müəyyən edilən zaman əmək fəaliyyətinin növünə görə fərqlənir.

***Qeyri-ərzaq məhsulları***

Qeyri-ərzaq məhsullarının alınmasına çəkilən xərclər öz xüsusi çəkisinə görə 3 yerə ayrılır. Buraya paltar, yataq ləvazimatı, ayaqqabı, sanitariya-gigiyena predmetləri, mebel, qab-qacaq və mədəni mallar aiddir.

***Xidmətlər***

Xidmətlərin haqqının ödənilməsi ilə bağlı xərclərdə MİB-in strukturunda mühüm yer tutur. Bu xərclər əhalinin müxtəlif cins-yaş qrupları üzrə mənzil-məişət təsərrüfatlarının və mədəniyyət obyektlərinin xidmətlərinə, rabitə, nəqliyyat və istirahət obyektlərinin

xidmətlərinə, məktəbəqədər uşaq müəssisələrinin xidmətlərinə minimal zəruri tələbat əsasında müəyyən edilmişdir. Müxtəlif xidmət növlərinə əhalinin tələbatını öyrənmək üçün aparılmış sosioloji tədqiqatların nəticələri və respublika üçün səciyyəvi olan milli ənənələrin xüsusiyyətləri nəzərə alınmalıdır.

***Yoxsulluq səviyyəsi***

İnsan potensialının inkişafına təsir edən amillərdən biri də ***yoxsulluq indeksidir***.

Yoxsulluq istənilən ölkənin rast gəldiyi, sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq müxtəlif cür təzahür edən bir problemdir. Yoxsulluq ölkədə orta gəlir və istehlak səviyyəsindən, həmçinin gəlir və istehlakın paylanmasından asılıdır. Konkret cəmiyyətdə heç olmazsa bir vətəndaşın həmin cəmiyyətin standartlarına uyğun qəbul olunmuş minimumdan aşağı səviyyədə yaşadığı təqdirdə yoxsulluqdan danışmaq olar.

Yoxsulluğun sərhədlərinin müəyyənləşdirilməsi üçün onu qiymətləndirən göstəricilər sistemi müəyyənləşdirilməlidir. Adətən pul göstəricilərindən, yəni gəlir və istehlak göstəricilərindən istifadə edilir. Yoxsulluğun qiymətləndirilməsi üçün istehlak göstəricilərinə üstünlük vermək məqsədəuyğun hesab olunur və aşağıdakı amillərlə bağlıdır:

1. gəlirdən fərqli olaraq istehlak nəticə göstəricisidir. Başqa sözlə desək, gəlir istehlakı təmin edən elementlərdən biridir, çünki istehlak üçün əldəetmə imkanı, məhsulun varlığı və s. amillər də vacibdir;
2. istehlak həyat səviyyəsinin və imkanların faktiki standartlarını əks etdirir. Bütün bu göstəricilərə uyğun verilənlər toplanır və təsnifatlaşdırılır.

Ümumiyyətlə, yoxsulluğu mütləq və nisbi təyin edirlər. Birinci halda o, müəyyən məhsul və xidmətlərin əldə olunmasına çəkilən xərclərin həcmi ilə təyin olunur. Mütləq yoxsulluq aşağıdakı kimi təsnifatlaşdırılır:

3. yaşayış minimumundan aşağı gəlirli əhalinin sayı;
4. yoxsulluq əmsalı – yoxsul əhalinin ümumi əhaliyə nisbəti;
5. yoxsulluq həddindən aşağıda yaşayan əhalinin adambaşına nominal və real gəlirləri, gəlirlərin median qiyməti;
6. orta qiymətin yarısından aşağı olan əhali;
7. aztəminatlı ailələrdə adambaşına nominal və real gəlirlərin dəyişmə indeksi;
8. mənfi artım olan ev təsərrüfatlarının sayı, nisbi ölçüsü;
9. gəlirlərin və yaşayış minimumunun nisbəti;

Bütün bu göstəricilər ölkədə yoxsulluğun sərhədlərini, dərinliyini və kəskinliyini təyin etməyə imkan verir. Yaşayış minimumundan əlavə beynəlxalq standartlara görə yoxsulluq həddini gün ərzində gəlirin ***$1.07 və $2.15*** məbləği kimi təyin edirlər.

Mütləq təyindən əlavə yoxsulluğu nisbi də təyin etmək mümkündür. Bu metodla təyin olunan həddi cəmiyyətin digər üzvlərinin gəlir və istehlak səviyyələri arasındakı nisbət kimi təyin etməliyik. Ümumiyyətlə, yoxsulluq həddinin təyini dövlətin apardığı siyasətdən asılıdır.

Qeyd etməliyik ki, nisbi və mütləq təyin olunmasına baxmayaraq, yoxsulluq statistik anlayışdır. Dinamik nöqteyi-nəzərindən isə həyat səviyyəsi aşağı düşən əhalini kasıblaşan, yüksələn əhalini isə varlılaşan əhaliyə aid etməliyik. Başqa sözlə desək, dinamikada əhali qrupları öz maddi vəziyyətlərinin dəyişməsi istiqamətinə görə təsnifatlaşdırılır. Beləliklə, əsasən əhalinin varlaşan, yoxsullaşan və öz vəziyyətini sabit saxlayan qruplarını ayırd etməliyik. Bundan əlavə, varlaşma və yoxsullaşma tempinə görə də əhali qruplaşdırıla bilər ki, bu da dövləti yoxsulluqla mübarizə zəminində hansı təbəqənin müdafiəyə daha çox ehtiyacı olduğunu ayırd etməyə və resurslardan rasional şəkildə istifadə etməyə imkan yaradır.

Müəyyən ölkədə şəraitin qiymətləndirilməsi üçün yoxsulluğun profili də müəyyənləşdirilməlidir. Yoxsulluğun profili – müxtəlif qrupların yoxsulluqlarının xarakteristikalarını əks etdirir. Qrupları coğrafi vəziyyət, yaş və s. kriteriyalar vasitəsilə təyin etmək olar.

Yoxsulluğun profilinin təyini zamanı aşağıdakı istiqamətlərdə tədqiqatın aparılması daha məqsədəuyğundur:

1) ev təsərrüfatı qruplarının yoxsulluq göstəriciləri;
2) yoxsulluq göstəricisində müxtəlif ev təsərrüfatı qruplarının payı – ölkənin yoxsulluq göstəricisində müxtəlif ev təsərrüfatlarının payını əks etdirir;
3) nisbi risk – bu risk verilən qrupun digərinə nisbətdə yoxsul olma ehtimalını əks etdirir.

Yoxsulluğun qiymətləndirilməsi işlərində əhali arasında yoxsul əhalinin payı, yoxsulluğun dərinliyi və kəskinliyi hesablanır.

Bütün bu göstəricilər ölkədə yoxsulluğun sərhədlərini, dərinliyini və kəskinliyini təyin etməyə imkan verir.

Bütün bu göstəricilərin ümumiləşdirilməsi olan insan potensialının inkişafı indeksi isə gözlənilən ömür müddəti indeksi, təhsil indeksi və ÜDM-in (alıcılıq qabiliyyəti pariteti əsasında) indeksinin cəminin orta həddi ilə müəyyənləşdirilir:

$$\text{İ}_{\text{İPİİ}} = \frac{\text{İ}_{\text{GÖM}} + \text{İ}_{\text{T}} + \text{İ}_{\text{ÜDM}}}{3}$$

Burada

$\text{İ}_{\text{İPİİ}}$ - insan potensialının inkişafı indeksi;

$\text{İ}_{\text{GÖM}}$ - gözlənilən ömür müddəti indeksi;

$\text{İ}_{\text{T}}$ - təhsil indeksi;

$\text{İ}_{\text{ÜDM}}$ - ÜDM-in (alıcılıq qabiliyyəti pariteti əsasında) indeksidir.

Ümumiyyətlə, qeyd olunan bu göstəricilərin təhlili ölkədə insan potensialının inkişafı səviyyəsinin qiymətləndirilməsinə və bu sahədə olan problemlərin həlli istiqamətində müəyyən fikirlərin söylənilməsinə imkan verir.

Qeyd etməliyik ki, nisbi və mütləq təyin olunmasına baxmayaraq, yoxsulluq statistik anlayışdır. Dinamik nöqteyi-nəzərindən isə həyat səviyyəsi aşağı düşən əhalini kasıblaşan, yüksələn əhalini isə varlılaşan əhaliyə aid etməliyik. Başqa sözlə desək, dinamikada əhali qrupları öz maddi vəziyyətlərinin dəyişməsi istiqamətinə görə təsnifatlaşdırılır. Beləliklə, əsasən əhalinin varlaşan, yoxsullaşan və öz vəziyyətini sabit saxlayan qruplarını ayırd etməliyik. Bundan əlavə, varlaşma və yoxsullaşma tempinə görə də əhali qruplaşdırıla bilər ki, bu da dövləti yoxsulluqla mübarizə zəminində hansı təbəqənin müdafiəyə daha çox ehtiyacı olduğunu ayırd etməyə və resurslardan rasional şəkildə istifadə etməyə imkan yaradır.

Müəyyən ölkədə şəraitin qiymətləndirilməsi üçün yoxsulluğun profili də müəyyənləşdirilməlidir. Yoxsulluğun profili – müxtəlif qrupların yoxsulluqlarının xarakteristikalarını əks etdirir. Qrupları coğrafi vəziyyət, yaş və s. kriteriyalar vasitəsilə təyin etmək olar.

Yoxsulluğun profilinin təyini zamanı aşağıdakı istiqamətlərdə tədqiqatın aparılması daha məqsədəuyğundur:

1) ev təsərrüfatı qruplarının yoxsulluq göstəriciləri;
2) yoxsulluq göstəricisində müxtəlif ev təsərrüfatı qruplarının payı – ölkənin yoxsulluq göstəricisində müxtəlif ev təsərrüfatlarının payını əks etdirir;
3) nisbi risk – bu risk verilən qrupun digərinə nisbətdə yoxsul olma ehtimalını əks etdirir.

Yoxsulluğun qiymətləndirilməsi işlərində əhali arasında yoxsul əhalinin payı, yoxsulluğun dərinliyi və kəskinliyi hesablanır.

Bütün bu göstəricilər ölkədə yoxsulluğun sərhədlərini, dərinliyini və kəskinliyini təyin etməyə imkan verir.

Bütün bu göstəricilərin ümumiləşdirilməsi olan insan potensialının inkişafı indeksi isə gözlənilən ömür müddəti indeksi, təhsil indeksi və ÜDM-in (alıcılıq qabiliyyəti pariteti əsasında) indeksinin cəminin orta həddi ilə müəyyənləşdirilir:

$$\text{İ}_{\text{İPİİ}} = \frac{\text{İ}_{\text{GÖM}} + \text{İ}_{\text{T}} + \text{İ}_{\text{ÜDM}}}{3}$$

Burada

$\text{İ}_{\text{İPİİ}}$ - insan potensialının inkişafı indeksi;

$\text{İ}_{\text{GÖM}}$ - gözlənilən ömür müddəti indeksi;

$\text{İ}_{\text{T}}$ - təhsil indeksi;

$\text{İ}_{\text{ÜDM}}$ - ÜDM-in (alıcılıq qabiliyyəti pariteti əsasında) indeksidir.

Ümumiyyətlə, qeyd olunan bu göstəricilərin təhlili ölkədə insan potensialının inkişafı səviyyəsinin qiymətləndirilməsinə və bu sahədə olan problemlərin həlli istiqamətində müəyyən fikirlərin söylənilməsinə imkan verir.




***Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi***

***İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu***

*Həsən Bəy Zərdabi Prospekti, 88a, AZ1011, Bakı şəhəri, Azərbaycan Respublikası,*
***Tel.:*** *+99412 4308933,* ***Faks:*** *+99412 4300215,*

***İnternet səhifə:*** *www.ier.az*

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi*

**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTU**

# *İNSAN KAPİTALININ İNKİŞAFI: NƏZƏRİ ASPEKTLƏRİ və QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI*

Çapa imzalanıb: 21.12.2017
Formatı 60x84 1/8. Ofset çap üsulu.
Tirajı 500 nüsxə

*"Çap ART" Nəşriyyatının mətbəəsi.*
*Bakı, Ə.Hüseyinzadə 55. Tel. 595 04 92*